# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Qambiya Respublikasının hökuməti və xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Qoy bu mübarək bayram Sizə, ailənizə və qardaş Azərbaycan xalqına bol ruzi-bərəkət, əmin-amanlıq, firavanlıq və mənəvi rifah gətirsin.

Ramazan bayramı mənəvi təfəkkür, sədaqət, şəfqət bayramıdır, eləcə də imanımızı gücləndirmək, Uca Yaradandan mərhəmət diləmək və bəşəriyyətə xidmət etmək öhdəliyimizi yeniləmək üçün mühüm məqamdır. Bu müqəddəs bayram münasibətilə bütün müsəlman ümmətinə Allahın sonsuz mərhəmətini diləyirəm.

Zati-aliləri, Sizə ən xoş arzularımı bildirir, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə İraq Kürdüstan Regionunun hökuməti adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Qoy bu mübarək bayram ölkənizə və dünyada yaşayan bütün müsəlmanlara davamlı xoşbəxtlik, firavanlıq, əmin-amanlıq gətirsin!

Ramazan bayramı təfəkkür, şükür, ruhən yenilənmə bayramıdır və bu kimi dəyərlər bizi birlik, qarşılıqlı anlaşma şəraitində birgə fəaliyyət göstərməyə ruhlandırır.

Mən yaxın əməkdaşlığımızın davam edəcəyinə və xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənəcəyinə ümid edirəm.

*Hörmətlə,*

***Məsrur BƏRZANİ,***
***İraq Kürdüstan Regionunun Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Möhtərəm cənab Prezident!

Mübarək Ramazan bayramı münasibətilə zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq. Bu münasibətlə Uca Allahdan Sizə möhkəm cansağlığı və davamlı uğurlar, ölkənizə və qardaş Azərbaycan xalqına səadət, xeyir və bərəkət diləyirik.

Şübhə yoxdur ki, islam dünyamızın qarşısında duran problemlər çoxsaylı və böyükdür. Bununla belə, biz inanırıq ki, hər bir problemin içərisində həll üçün bir fürsət də var. Biz dost ölkələrin inkişafı, onlar arasında iqtisadi əlaqələr yolundakı maneələri aradan qaldırmaq və əməkdaşlıq körpüləri qurmaq məqsədilə qardaşlarımızla çiyin-çiyinə işləmək əzmindəyik. Çünki biz irəliyə baxaraq hər kəsin təhlükəsizlikdən və firavanlıqdan bəhrələnəcəyi daha yaxşı sabaha can atırıq.

*Dərin hörmətlə,*

***Ammar Əl-HAKİM,***
***İraqın Milli Dövlət Qüvvələri Koalisiyasının Prezidenti***

Azərbaycan.- 2025.- 5 aprel (№65).- S.4.